


# ANA KÜR

Avqust-Sentyabr 2022-ci il, N 5-5 (165-166)
Qəzet 21 fevral 2009-cu il tarixdən çıxır

İctimai, ekoloji maarifləndirici qəzet





## Ulu Öndər Heydər Əliyevin xatirəsi Rusiyanın Pyatiqorsk şəhərində Azərbaycan diasporunun fəalları tərəfindən qeyd edilmişdir

*Tədbirdə "Ana Kür" qəzetinin baş redaktoru, "Ana Kür" ictimai birliyinin sədri, yazıçı-publisist, Azərbaycan Yazıçılar və Jurnalistlər birliyinin üzvü Rüstəm Məlikov da iştirak etmişdir*



Həmişə Vətəndən uzaqda olanda insan özünün kim olduğunu, hansı milləti təmsil etdiyini, bütöv dünyanın bir damlası kimi yerini daha yaxından görür və düyur. Belə anlarda xalqımızın adına başqa millətlərin arasında da qürur gətirən, özü tarix yaradan şəxsiyyətlərin həyatı göz önünə gələndə yaşanan hissləri bəzən təsəvvür etmək, qələmə almaq mümkün olmur. Xüsusən, 30 illik düşmən işğalından sonra qazanılan tarixi Zəfərimiz nəticəsində ərazi bütövlüyümüzün bərpa edilməsi bu anlamı daha da müqəddəsləşdirir.

Son əmək məzuniyyətimin isti avqust günlərində Rusiya Federasiyasının Kislovodsk, Pyatiqorsk, Yessentuki və digər şəhərlərində istirahətdə oldum. Buraların təbii gözəllikləri, turizm infrastrukturu müalicə imkanları çox böyükdür və öyrənilәsi məqamlar da vardır. Lakin bu yazıda heç də bu məqamlara toxunmaq fikrim yoxdur. Məqsədim Azərbaycan diasporunun bu regionda fəaliyyət göstərən təşkilatlarının işləri barədə məlumat verməkdir.

İlk tanışlığım Kislovodskdakı "Araz" Azərbaycan Milli Muxtariyyətinin sədri Asif musayevlə oldu. Həmyerlimiz Azərbaycan diasporunun Rusiyada tanınmış nümayəndəsi Dünya Azərbaycanlılarının Milli Birliyinin Rusiya və MDB ölkələri üzrə nümayəndəliyinin rəhbəri Elşən qardaşımız vaxt olan kimi Asif müəllim və region təmsilçilərimizlə görüşməyi tövsiyə etmişdi.



Asif müəllim əslən Yevlax şəhərindəndir.Talehinə ötən əsrin 70-ci illərindən vətəndən uzaqda yaşamaq düşüb. Bu, başqa söbətin mövzusudur və zamanında qələmə alınacaqdır.

İlk söhbətimizdə ictimai fəaliyyətim barədə bilən kimi dedi ki, bir neçə gündən sonra regional diasporun sədrləri və fəalları Pyatiqorsk şəhərində tədbir keçiməyi planlaşdırırlar. Mən sizi də bu tədbirə dəvət edirəm.

Əlbəttə, tədbirin gündəliyindən asılı olmayaraq razılıq verdim. Bir neçə gündən sonra Kislavodsk şəhərində yaşayan və fəaliyyət göstərən fəallarla Pyatiqorsk şəhərinə yola düşdük. Bizi burada "Araz" Azərbaycan Milli Muxtariyyətinın sədri Təhmasib Zeynalov vi regionu təmsil edən digər qurumlarımızın sədrləri və fəalları qarşıladılar.

Cəmiyyətin ofisində qısa tanışlıq oldu. Asif müəllim məni qonaqlara təqdim etdi. Mən də onlarla tanış oldum. Təhmasib qardaşımız məlumat verdi ki, bu şəhərin S.M.Kirovun adını daşıyan sanatoriyasına gediləcək. Umumilli Liderimiz Heydər Əliyev kecmiş SSRİ Nazirlər Komitəsinin birinci müavini işləyən müddətdə məzuniyyət dövrlərində məhz bu sanatoriyada dincəlirmiş. Məhz bizim təşəbbüsümüzlə bu sanatoriyanın foyesində xatirə lövhəsi vurulmuşdur. Açılışında Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu və yerli hakimiyyət rəhbərləri, Azərbaycan icmalarının üzvləri iştirak etmişlər.

Çox yadda qalan tədbir oldu. Hamımız təsirləndik. Xalqımızın böyük oğlu Heydər Əliyevin çox sahəli fəaliyyətinin Rusiyanın sosial-iqtisadi inkişafına verdiyi töhfələr qeyd edildi. Bu güngü iqtidarımız dəyərləndirildi. Tarixi zəfəri bizə yaşadan şəhidlərimiz yad edildi, qəhrəman qazilərimizə sağlamlıq arzu edildi.

Tədbirin Rusiya-Azərbaycan diplomatik əlaqələrinin 30 illiyi dönəmində keçirilməsinin öz əhəmiyyəti var idi.Tədbirimizin aparıcısı Asif müəllim Vətəndən gəlmiş qonaq kimi mənə də söz verdi. Mən də əlimdə Azərbaycan bayrağı tutaraq bu bayrağın təsvirini vermiş Əlibəy Hüseynzadənin vətənindən tədbir iştirakçılarına salamlarımı çatdırdım. Ürəyimdən gələn, yaşadığım həyacanları ifadə etdim.Vətəndən kənarda yaşayan və fəaliyyət göstərən vətən oğulları ilə hər bir azərbaycanlımızın qürur duyduğunu qeyd etdim.



*PS. Səfər təəssüratlarımız barədə növbəti saylarımızda da yazılar veriləcəkdir.*

*Salyan-Pyatoqorsk-Kislovodsk şəhəri.*

Avqust 2022-ci il.

## Prezident İlham Əliyev: "Bu gün, avqustun 26- da biz - azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq


Tweet
İlham Əliyev
@azpresident
Bu gün, avqustun 26-da biz – Azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün Laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm.
Yaşasın Laçın!
Yaşasın Azərbaycan!
Translate Tweet
11:18 AM · Aug 26, 2022 · Twitter Web App

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev rəsmi tviter səhifəsində Laçınla bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Bu gün, avqustun 26-da biz - azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!".

## Azərbaycanın Dövlət Bayrağı Laçın şəhərində ucaldılıb

AZƏRTAC xəbər verir ki, korpus komandiri general-mayor Kənan Seyidov bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məruzə edib. Məruzədə qeyd olunub: "Möhtərəm Prezident, cənab Müzəffər Ali Baş Komandan! Əmrinizə əsasən, Azərbaycan Ordusu Laçın şəhərini, Zabux və Sus yaşayış məntəqələrini tam nəzarətə götürdü. Laçın şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağı dalğalanır. Yaşasın Azərbaycan! Yaşasın Müzəffər Ali Baş Komandan! Qarabağ Azərbaycandır!".



Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi barədə paylaşım edib. Dövlətimizin başçısı bu münasibətlə bütün laçınlıları və Azərbaycan xalqını təbrik edib.

## Birinci vitse-prezident Mehriban Əliyeva azərbaycanlıların Laçın şəhərinə qayıdışı ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində azərbaycanlıların Laçın şəhərinə qayıdışı ilə bağlı paylaşım edib.

Birinci vitse-prezident Prezident İlham Əliyevin azərbaycanlıların Laçına qayıdışı ilə bağlı tvitini paylaşaraq qeyd edib: "Qarabağ Azərbaycandır!!!".




## Laçın şəhəri, Zabux və Sus kəndlərində mühəndis təminatı üzrə tədbirlər icra edilir

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən Laçın şəhəri, Zabux və Sus kəndlərində mühəndis təminatı üzrə tapşırıqlar icra edilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, həmin ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi işləri yüksək peşəkarlıqla yerinə yetirilir.

Yaşayış məntəqələrində əsas səylər təhlükəsizlik qaydalarına ciddi riayət etməklə, kombinə edilərək kustar üsulla hazırlanan partlayıcıların və tələ minaların aşkarlanaraq zərərsizləşdirilməsinə yönəldilir.

## Ölkə QHT-ləri Laçın şəhəri, Zabux və Sus kəndlərinin nəzarətə keçməsi ilə bağlı Cənab prezidentə təşəkkür ediblər

26 avqust tarixində ölkə QHT-lərinin müraciəti əsasında Agentliyin ofisində Laçın şəhərinin azad olunması ilə bağlı görüş keçirilib.

Görüşü açılış nitqi ilə açan Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva qeyd edib ki, tariximizə və dövlətçliyimizə qızıl hərflərlə yazılan şanlı qələbə regionumuzda yeni geosiyasi reallıqlar yaradıb, ölkə başçısının rəhbərliyi ilə gerçəkləşən misli görünməmiş sürətli bərpa-quruculuq işləri Qarabağ və Şərqi Zəngəzura əzəli-əbədi sakinlərinin qayıdışının təməlini qoyub. Bu günü çox əlamətdar bir xəbərlə açdıq. Laçının tam azad olunması ilə bağlı ölkə başçısının rəsmi tviter səhifəsində edilən paylaşım hər birimizi qürurlandırdı.

Daha sonra çıxış edən qeyri-hökumət təşkilatları - Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatnın sədr müavini Cəlil Xəlilov, "Mərhəmət" Kimsəsizlərə Yardım ictimai birliyinin sədri İradə Polad, Azərbaycan Vətən Müharibəsi Veteranları" ictimai birliyinin nümayəndəsi Niyazi Quliyev, Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası İctimai Birliyinin sədri Rey Kərimoğlu, "Xankəndi" məcburi köçkünlərə dəstək İctimai Birliyinin sədri Vəliyeva Xatirə, "Xocalı Soyqırımını Tanıtma" ictimai birliyinin sədri Şamil Ələkbərli, Qarabağ Müharibə Veteranlarına Yardım ictimai birliyinin sədri Növrəstə Yusifova, "Müharibə Veteranı Qadınlarına Sosial Yardım" ictimai birliyinin sədri Radə Abbas, "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" ictimai birliyinin sədri Hafiz Səfixanov,



Sağlam İnkişaf və Maarifləndirmə ictimai birliyinin sədri Anar Xəlilov, "Dialoq və İnkişaf Naminə İctimai Birliyi"nin nümayəndəsi Samir Pənəliyev, Milli QHT Forumunun sədri Rauf Zeyni, "Jurnalist Ekspert Mərkəzi" ictimai birliyinin sədri Ceyhun Musaoğlu, "Azərbaycan Jurnalistlər Şəbəkəsi" ictimai birliyinin sədri Ayaz Mirzəyev, "Ortaq Dəyərlər" ictimai birliyinin sədri Aqil Camal, Tarix və Mətbuat Araşdırmalarına Dəstək ictimai birliyinin sədri Nəsiman Yaqublu, "Regional İnsan Hüquqları və Media Mərkəzi" ictimai birliyinin sədri Xalid Kazımov, MİRAS Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri Fariz Xəlili, Azərbaycanın İşğal Olunmuş Ərzilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı ictimai birliyinin sədri Faiq İsmayılov Laçın şəhəri, Sus və Zabux kəndinin nəzarətə keçməsinə görə ölkə başçısı cənab İlham Əliyevə təşəkkür ediblər.



**Rahim Hüseynov-75**

# Salyanın fəxri

*Tibb elmləri doktoru, professor, Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin rektoru, Beynəlxalq İnformasiya Akademiyasının həqiqi üzvü, akademik Yusif Məmmədəliyev və akademik S.Vavilov adına Beynəlxalq mükafatlar, Dünya İnformatizasioloqları Elitası ünvanlı Beynəlxalq müsabiqələr laureatı, Mahmud Kaşqari adına Beynəlxalq Fondun medalını və "Dünya Azərbaycanlıları" İctimai Mərkəzinin "Qızıl Buta" mükafatını almış həmyerlimiz, Salyanımızın fəxri Rahim Hüseynovun 75 illik yubileyi münasibəti ilə növbəti sayımızı təqdim edirik*

## On il əvvəlin xatirələri



**Elin-obanın, Muğanın ağsaqqalı İmamverdi Əbilov:**

"Yaşımın bu məqamında, 85-i bağlayan çağımda qənaətə gəldiyim çox həqiqətlər oldu. Misir Piramidasını ucaldanlardan da, dünyanı fəth edənlərdən də sonda xoş, xeyirxah əməllərdən başqa heç nə qalmadı. Yalnız yaxşı əməlləri ilə könülləri fəth edənlər əbədi yaşamaq imtiyazı qazanıblar. Yurdumuzun böyük oğullarından biri olan Rahim Hüseynov sağlığında bu məqama çatmışlardandır. O, həm əsl-nəcabətli bir nəslin nümayəndəsidir. Atası, babası da həmişə təəssübkeş olublar.

Bu ilin may günlərində doğma yurdumuz Salyanda yenidən görüşdük. 30-35 illik xatirələr yenidən isindi. Oğlum Azər Turanın "Darülmöminin" kitabının təqdimatında söylədiyi fikirlər, verdiyi qiymət məni yaşımın bu çağında çox fərəhləndirdi. Bir daha inandım ki, Salyan ziyalıların Vətəni, darülmöminlərin torpağıdır. Əli bəy Hüseynzadələrin ruhu Rahim kimi oğullardadır. Ona özüm qədər yaşamaq, yaratmaq sevinci arzu edirəm. Bu gün əsl salyanlı, əsl yurdsevər insan timsalında bu torpağın təəssübünü çəkən, onun daha da şöhrətlənməsi üçün əlindən gələni böyük ürəklə icra edən çox az adamdan biri də mənim və hamının əzizi Rahim müəllimdir. Bu gün mənə doğma olan "Ana Kür" qəzetinin də belə şəxsiyyətləri yaddan çıxarmadığına görə təşəkkür edirəm".



**Əvəzağa Məlikov:**

-Ən əziz günlərdə mən ancaq onun telefon zəngini (harada olmasından asılı olmayaraq) gözləyirəm. O, nadir insandır və təkcə sağlamlığın keşikçisi deyil, insan ruhunun, mənəviyyatının da həkimi, kamil bilicisidir. Allahın bir insana verə biləcəyi hər şeyin onda cəmlənməsi-əqidə, bilik, rəhbərlik, təşkilatçılıq bacarığı, liderlik, ailə başçısı, böyük təfəkkür, yurdsevərlik… və səxavətlilik - böyük xoşbəxtlikdir.

Allah onu qorusun!



**Xalq şairi Zəlimxan Yaqub:**

XXI əsrdə yaşayırıq. Bütün zamanlarda olduğu kimi, indi də yaxşılara, həqiqətpərəstlərə böyük ehtiyac var. Cəmiyyətin, xalqın, millətin yaxşılara, xeyirxahlara həmişə ehtiyacı olub, olacaq.

Bu gün Rahim Hüseynov az tapılan həmin yaxşılardan və alicənablardan biridir.

Mən bu insanı yaxşı kişilərin yadigarı kimi tanıyır və ona yüksək dəyər verirəm. Rahim Hüseynov yaxşıların, alicənabların davamçısıdır. Onun ocağı da, nəsli də yaxşılıq örnəyidir.

Mən hörmətli tibb professorumuz, dəyərli alimimiz Rahim Hüseynovun altmış beş illiyini ürəkdən təbrik edir, elmi fəaliyyətində böyük uğurlar arzulayıram.



**Respublika Təhsil Şurasının sədri, professor Əjdər Ağayev:**

Mən Rahim Hüseynovu, əmisi Aslan Hüseynovu, atası Məmmədhüseyn kişini yaxşı tanıyırdım. Rahimin də həkim olduğunu bilirdim. Tanışlığımız 1990-cı illərdə oldu.

Rahim Hüseynovun çox geniş təşkilatçılıq bacarığı, idarəçilik istedadı onun Qarabağ müharibəsi dövründə və müstəqil respublikanın ilk səhiyyə naziri vəzifəsində işləyəndə çox aydın hiss olunurdu. Rahim müəllim qısa müddətdə o qədər faydalı iş gördü ki, biz onunla bir salyanlı kimi yox, bir insan, bir vətəndaş olaraq fəxr etməyə başladıq və o, gözümüzdə ucaldı.

Rahim Hüseynov bu gün də bu ucalıqdadır. Həyatını bizimlə yaxın sahəyə - təhsil sisteminə bağladı. "Təfəkkür" Universitetinin I prorektoru işləməyə başladı. Tədbirlərdə, məclislərdə ziyalı kimi görüşümüz, söhbətlərimiz həmişə olub. Mən də tam müəyyənlik yaranıb ki, bu adam bütün iliyinə qədər vətənpərvərdir. Bütün varlığı ilə Vətənini, torpağını sevən insandır, olduqca xeyirxah, səmimi adamdır. Bütün bunlara görə dəyər verdiyim insanlar arasında mənim də ona rəğbətim çox böyükdür.

Rahim Hüseynov fəaliyyəti respublikamız və onun hüdudlarından kənarda da tanınır. Elmi tədris nailiyyətləri ilə bir sıra beynəlxalq elmi təşkilatların üzvü seçilib. Mən dostumuz Rahim müəllimə şəxsi həyatında cansağlığı, digər fəaliyyətlərində isə yeni-yeni uğurlar arzulayıram. Qoy Allah Rahim müəllim kimi insanların sayını çox etsin ki, arzusunda olduğumuz yüksək maddi və mənəvi tərəqqiyə daha tez çataq.

---



Mənim üçün professor Rahim Hüseynov haqqında söz demək həm çox asan, həm də bir o qədər çətindir. Asandır ona görə ki, bizim təkcə özümüzün deyil, ailələrimizin bir neçə qərinələr yaxınlığı, dostluğu, doğmalığı var. Yəni Rahim Hüseynovla biz sanki elə eyni ailənin üzvləriyik. İstər bizim şəcərədə, istər onların ailəsində hər kəs bir-birini çox yaxşı tanıyır və bir-birimizə dərin hörmət bəsləyirik. Tanıdığın belə bir adam haqqında yazmağa nə var ki?! Amma çətindir o mənada ki, yaxından bələd olduğum Rahim Hüseynov haqqında nələrisə unudub yazımda qeyd etməyə bilərəm. Bu isə əsl məsuliyyətdir. Axı belə yazılar hər gün qələmə alınmır. Bu səbəbdən 75 yaşı tamam olan yubilyarın özünə - Rahim Məmmədhüseyn oğlu Hüseynova bir məktub ünvanlamağı qərara aldım:

"Əziz dostum, qardaşım, öncədən yubileyinizi təbrik edirəm. Sizə hər şeydən əziz olan cansağlığı, cansağlığı və cansağlığı arzulayıram. Nədən "cansağlığı" sözünü üç dəfə təkrar edirəm? Çünki siz bütün ömrünüz boyu insanların sağlamlığının keşiyində dayanmısınız və sağlamlığın hər kəs üçün nə qədər qiymətli olduğunu həkimlər daha çox bilir.

Mən sizinlə bir görüşümü çox yaxşı xatırlayıram. 1972-ci il idi, mənim cəmi 16 yaşım var idi. Salyanda çalışdığım "Qələbə" qəzetinin qarşısından atamla keçirdik və həmin binanın sağ tərəfində yerləşən birmərtəbəli binadan xeyli sayda ağxalatlı gənclər çıxdı. Daha çox qızlar idi. Onlar bir nəfər ucaboylu, çox yaraşıqlı bir gənci əhatə etmişdilər. Birdən necə oldusa, həmin gəncin diqqəti bizə yönəldi və o, ətrafındakılardan ayrılaraq atama yaxınlaşdı:

"Salam, Hümmət əmi, - dedi. Rahiməm - Məmmədhüseyn Hüseynovun oğlu. Necəsiz?

Atam isə onun boynunu qucaqladı:

"Ay Allah saxlasın, ay oğul! Sən gərək ki, Rusiyada işləyirdin. Maşallah, ağ xalat sənə çox yaraşır.

Həmin gənc isə bildirdi ki, artıq Rusiyadan vətənə qayıdıb. Salyan Rayon Mərkəzi Xəstəxanasında həkim-cərrah işləyir. Eyni zamanda, Salyan Tibb Məktəbində cərrahiyyədən dərs deyir. Sən demə onu əhatə edən, onunla həmyaş olan gənclər də elə onun tələbələri imiş...

Atam onu bir də bağrına basdı, "Get-get", - dedi. "Tələbələrin səni gözləyir". O da həm mənimlə, həm də atamla əl verib görüşdü və onu gözləyən tələbələrinin yanına qayıtdı. Atam isə üzündə təbəssüm, bircə kəlmə dedi "Əsluhu".

Uzun illər sonra yazıçı dostum, şərqşünas Aydın Abdullayevdən də bu sözü eşitdim və bildim ki, ərəb dilindən tərcümədə bu söz əsilli-nəsilli anlamını verirmiş. O vaxtdan 50 il keçir və mən həmişə sizin haqqınızda söz düşəndə, sizin haqqınızda danışanda, sizinlə hər görüşümüzdə, Salyanda xeyir-şər məclislərində hər zaman sizin nurlu simanızı görəndə rəhmətlik atamın - Salyanda çox böyük nüfuza sahib olan Hümmət Lalayevin bu sözünü xatırlayıram - "Əsluhu".

Siz doğrudan da bütün həyatınız boyu nəsil-nəcabətinizin adına layiq yaşadınız. Çox gənc yaşlarınızdan - 1975-ci ildən Səhiyyə Nazirliyi aparatında fəaliyyətə başlayarkən cəmi 28 yaşınız var idi. Amma bütün salyanlılar bilirdilər ki, onların bir həmyerlisi Səhiyyə Nazirliyində çalışır və həmin cavan oğlan Salyan boyda hörmət-izzəti olan Hüseynovlar nəslinin sevimlisidir. O zamanlar bu və ya digər xəstəlikdən sağalmaq ümidi ilə Bakıya gələn hər kəs sizi axtarırdı. Və siz də gənc olmağınıza baxmayaraq, bu insanları o qədər böyük sevgi, o qədər böyük qayğı ilə əhatə edirdiniz ki, üstündən neçə illər keçsə belə, o adamlar hər zaman sizə borclu olduqlarını etiraf edirlər. Bütün bunlar mənim yeniyetməlik və gənclik illərimin xatirələridir.

Əziz Rahim müəllim!

Siz Səhiyyə Nazirliyində ən aparıcı sahələrdə çalışdınız. Müalicə-profilaktika yardımı baş idarəsində həkim-inspektor, ərizə və şikayətlər şöbəsinin müdiri, Kadrlar, Elm və Təhsil İdarəsinin rəisi, Müalicə-profilaktika yardımı Baş İdarəsinin rəisi - Səhiyyə Nazirliyinin kollegiya üzvü, Səhiyyə Nazirinin müavini, Azərbaycan Respublikasının Səhiyyə Naziri. Bütün bunlar sizin Səhiyyə Nazirliyində çalışdığınız müddətdə keçdiyiniz şərəfli yoldur. Bütün bu vəzifələrdə işləyərkən, 1990-1995-ci illərdə Azərbaycan Respublikasının Xalq deputatı olarkən, daha sonralar fəaliyyətinizi Elm və Təhsil Mərkəzi Təfəkkür Universitetində kafedra müdiri, I prorektor və rektor kimi davam etdirərkən, hər zaman insanlara yaxın oldunuz, sizə müraciət edənlərin problemlərinə diqqətlə yanaşdınız.

Sizin elmi fəaliyyətiniz də Azərbaycan səhiyyəsinin, tibb elminin inkişafına xidmət etmişdir. Tibb elmləri doktoru, professor kimi əldə etdiyiniz nailiyyətlərə görə Beynəlxalq İnformasiya Akademiyasının həqiqi üzvü seçilmişsiniz, akademik Yusif Məmmədəliyev və akademik S. Vavilov adına Beynəlxalq mükafata, Dünya İnformatizasioloqları Elitası ünvanlı Beynəlxalq müsabiqələr laureatı adına layiq görülmüşsünüz. Elmi uğurların və elmi-ictimai fəaliyyətin davamı kimi Siz Mahmud Kaşqari adına Beynəlxalq Fondun medalını və "Dünya Azərbaycanlıları" İctimai Mərkəzinin "Qızıl Buta" mükafatını almışsınız.

...Biz tez-tez görüşməsək də, xüsusən bayram günlərində sizin mehriban, qayğıkeş bir ağsaqqal, böyük sevgisi ilə mənə telefon açmağınız inanın ki, qəlbimə sonsuz sevinc gətirir və bizim telefonda danışıq tərzimizdən evdəkilər də bunu duyurlar ki, xəttin o biri başında hamımızın əzizi Rahim Hüseynovdur.

Mən sizdən kiçik olan qardaşınız Nazim Hüseynovla da tez-tez yazışıram. Nazim həkimin də ölkə səhiyyəsində xüsusi yeri var və mən bilirəm ki, hər hansı bir xəstəlikdən əziyyət çəkən və istər sizi, istərsə də Nazim həkimi tanıyan bir kimsə varsa, yenə də sizə müraciət edir, çünki onların hər birisi yaxşı bilir ki, siz onları bütün qayğı ilə əhatə edə biləcəksiniz. Xəstəyə şəfqət göstərmək isə ən qiymətli dərmanlar qədər vacibdir. Sizin göstərdiyiniz bu şəfqətin, bu qayğının, bu diqqətin, bu sevməyin və təbii ki, bu sevilməyin arxasında bilirsiniz nə dayanır?

"ƏSLUHU!"

Dərin hörmət və sevgilərlə,

*Əliqismət Lalayev,*
*Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru, Azərbaycan Respublikasının və Naxçıvan MR-in Əməkdar incəsənət xadimi, fəlsəfə doktoru*

---



Bir salyanlı kimi, müəllim kimi, rayon ziyalısı kimi mən də uzun illərdir ki, Rahim müəllimi tanıyır, onun həyat və fəaliyyətini izləyirəm. Respublika əhəmiyyətli siyasi kompaniyalarda, tədbirlərdə birlikdə olmuşuq. Bu gün əziz müəllimimiz şərəfli həyatının 75-ci ilini yaşamaqdadır. Bu ömür müdrikliyə, ziyalılığa bir nümunədir.

Rahim Hüseynov Salyanın ziyalı ailəsində dünyaya gəlmiş, nəsil şəcərəsinə layiq yetişməklə bölgənin yaxşı kişilərinin, müqtədir insanlarının ən yaxşı keyfiyyətlərini özündə əxz edə bilmiş və onların nümunəvi əməllərini layiqincə davam etdirməyə nail olmuşdur. Bu sahədə tutduğu vəzifənin səlahiyyətlərindən şəxsi nüfuz və imkanlarından istifadə etməkdə çəkinməmişdir.

Təkcə salyanlılar deyil, I Qarabağ müharibəsi dövründə Rahim Hüseynovun Azərbaycan Respublikasının Səhiyyə nazirinin müavini və səhiyyə naziri kimi fəaliyyətini izləyənlərin hamısı onun göstərdiyi xidmətlər əsl vətənpərvərlik nümunəsi kimi xatırlamaqdadır.

Rahim müəllim respublikamızın ictimai-siyasi həyatında da fəallıq göstərib, 1990-1995-ci illər Salyan Seçki Dairəsindən Ali Sovetdə deputat olub. Elinə, obasına bağlı bir insan kimi, yerli problemlərin həlli üçün təşəbbüslər göstərib. Xüsusən, rayonun səhiyyə strukturunun yenidən qurulmasında, burada rayonlararası kardiologiya mərkəzi, Babazanan massivində həkim ambulatoriyasının inşasına nail olub. Salyanın içməli su təchizatının inşası, kanalizasiya sisteminin yenidən qurulması və digər məsələlərin həlli üçün ilk addımları da Rahim müəllim atmışdır.

Rahim müəllim milli-mənəvi dəyərlərə bağlı bir insan olmaqla, bu dəyərlərin təəssübkeşi kimi də tanınır. Yadımdadır ki, Salyan rayonunda Ağa Mir Bağır Ağanın yaşadığı məhəllədə evinin qarşısında barelyefinin qoyulması təşəbbüsü və rayon ictimaiyyətinin iştirakı ilə açılışının təşkili də Rahim müəllimə aiddir.

Rahim müəllim əsl elm adamdır. Onun bu sahədə böyük uğurları olmuş, elmi-pedaqoji fəaliyyəti beynəlxalq mükafatlara layiq görülmüşdür. Gənclərin təhsil, elmi təfəkkürünün artırılması məqsədi ilə Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin təsis edilməsi zamanında bu sahədə çox gərəkli addım kimi qiymətləndirilmişdir. Xatırlayırıq ki, universitetin Salyan rayonunda filialının yaradılmasında Rahim müəllimin doğma yurdun yetişməkdə olan nəslinin inkişafına göstərdiyi xidmətlərdən biridir. Bu xeyirxah işin nəticəsində Salyanda və bölgədə yeni ziyalılar nəsli formalaşdı

Rahim müəllim dövlətçiliyə və Heydər Əliyev siyasətinə sədaqətli bir ziyalıdır. Mən buna Milli Məclisə seçkilərdə, prezident seçkilərində tam əmin olmuşam. Seçicilərlə görüşdə Rahim müəllim Salyan ziyalıları ilə birlikdə olmuşdur. Onun bir ziyalı kimi, seçicilərə düzgün seçim etmək tövsiyəsi siyasi kampaniyaların nəticələrinə yaxşı mənada təsir göstərmişdir. Məhz buna görə də Salyanda seçki kampaniyaları həmişə yüksək fəallıqla keçmişdir.

Salyanın mədəni-ictimai həyatında və digər əlamətdar hadisələrin qeyd olunduğu günlərdə Rahim müəllim həmişə doğmaların yanında olur, özünün ziyalı və təəssübkeş mövqeyini bildirir. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə qeyd edilən Muğan-Babazanlı abidələrinin 2800 illik yubileyinin doğma Salyanda keçirilərkən Rahim müəllim ev sahibi kimi qonaqları qarşılayırdı.

Rahim müəllim dahi mütəfəkkir Əli bəy Hüseynzadənin adını daşıyan rayon tarix-diyarşünaslıq muzeyində AXC-nin 100 illik yubileyi çərçifəsində keçirilən respublika səviyyəli tədbirdə iştirak edən hörmətli qonaqlarla birlikdə idi. Əli bəyin xatirəsinə həsr edilmiş elmi-praktik konfransda Əli bəyin bir sıra qiymətli əşyaları muzeyə hədiyyə edildi. Əli bəy irsinin təbliğindəki xidmətlərə görə Rahim müəllimə xüsusi xatirə diplomu təqdim edildi. Əlbəttə, bütün bunlar bizi, Salyan ziyalılarını çox qürurlandırır.

Xatırlamaq yerinə düşər ki, Rahim müəllim Salyanın tarixi-mədəni irsinin qorunması, bərpası, həmçinin tarixi şəxsiyyətlərinin, tanınmış elm, sənət adamlarının tərcümeyi-hallarının toplanaraq kitablar halında çap edilməsinin dəfələrlə təşəbbüskarı və təşkilatçısı olmuşdur. Bu missiyanı Rahim müəllim indi də davam etdirməkdədir.

Salyan ziyalıları Rahim müəllimi 75 illik yubileyi münasibəti ilə təbrik edir, ona möhkəm cansağlığı arzulayırlar. Biz salyanlılar Rahim müəllimlə fəxr edirik. İnanırıq ki, Rahim müəllim hələ neçə on illər elinə, obasına, Vətəninə göstərdiyi xidmətləri ilə hər birimizə böyük sevinc bəxş edəcəkdir.

Yubiley yaşınız mübarək, Əziz Rahim müəllim

*Allahverdi PİRİYEV,*
*Salyan rayon "Ziyalılar" İctimai Birliyinin sədri, Əməkdar müəllim*

---



Rahim Hüseynov haqqında danışmaq, fikir söyləmək həm asandır, həm də çətin. Çünki, yaxın tariximizə müstəqil Azərbaycan Respublikasının ilk Səhiyyə Naziri kimi adı yazılan bir Rahim Hüseynov var, bir ölkəmizin elmi-pedaqoji ictimaiyyətinin tanıdığı tibb elmləri doktoru, professor, Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin rektoru olan Rahim müəllim, bir də elinin obasının təəssübkeşi, ağsaqqalı, salyanlılar üçün Məmmədhüseyn dayının oğlu Rahim kişi.

Mənim üçün onların hər biri doğma və əzizdir. Rahim Hüseynov Salyanın ziyalı ailəsində anadan olub. Məmmədhüseyn kişi və Nənəqız müəllimə rayonumuzun ən hörmətli insanlarından idilər. Rahim müəllimin böyüdüyü ailədə 5 həkim yetişmişdir. Rahim həkimlə birlikdə professor Nazim Hüseynov, həkim Zenfira xanım, həkim Rahimə xanım, həkim Zəminə xanım. Nazim Hüseynov hal-hazırda Əziz Əliyev adına Həkimlərin Təkmilləşdirmə İnstitutunun burun-qulaq-boğaz kafedrasının müdiri və respublikanın baş ortolorinqoloqudur.

Rahim müəllim güclü səhiyyə təşkilatçısı olub. Səhiyyə Nazirliyində bacarığı, biliyi və təşkilatçılıq istedadı ilə kiçik vəzifədən nazir postuna qədər yüksəlib. Onun səhiyyəmizin inkişafında əməyi çox böyükdür.

Ordumuzun möhkəmləndirilməsində, ilk səhra hospitallarının yaradılmasında, bütövlükdə, müstəqilliyimizin möhkəmlənməsində Rahim müəllimin böyük xidmətləri olub. O, regionların, o cümlədən, Salyan səhiyyəsinin maddi-texniki bazasının möhkəmlənməsində zəhməti danılmazdır. Rayonlararası kardiologiya mərkəzi və Babazanan həkim ambulatoriyası məhz onun dəstəyi ilə inşa olunmuş və hər cür avadanlıqlarla təchiz edilmişdi. Salyanda Ağa Mirbağır Ağanın yaşamış olduğu məhəllədə onun adına məscidin yaradılması və burada Ağanın barelyefinin qoyulmasında Rahim müəllimin böyük zəhməti olmuşdur.

Xatırlayıram ki, 1992-ci ilin iyul ayında Rahim müəllim məni Salyan Rayon Mərkəzi Xəstəxanasının baş həkimi təyin etdi və tapşırdı ki, insanlarımıza layiqincə xidmət edim. Mən də işlədiyim müddətdə etimadı doğrultmağa çalışdım. Rahim müəllim Salyan səhiyyəsinin yaşlı nəslinə böyük hörmət, cavan nəslinə isə lazımi qayğı göstərmişdir. Uzun illər baş həkim işləmiş Əvəzağa Məlikov və digər həkimlərlə həmişə yaxşı münasibətdə olub.

Qeyd etdiyim kimi, respublikamızın elmi ictimaiyyəti onu unikal bir şəxsiyyət kimi dəyərləndirmişdir. Respublikamızın tanınmış insanlarının vaxtilə onun haqqında dedikləri fikirləri yada salmaq istəyirəm.

Akademik Bəkir Nəbiyev: Xalq şairi Xəlil Rza Ulutürkün ömrünü bir neçə il uzadan yuxarıda Allah, aşağıda Rahim Hüseynov olub.

Akademik Ziyad Səmədzadə: Yüksək ziyalılıq nümunəsidir, Rahim müəllim.

Akademik Kamal Talıbzadə: Rahim müəllim Abdulla Şaiq ocağını yaşadanlardandır.

Akademik Fuad Qasımzadə: Rahim müəllimlə dostluğumdan hədsiz qürur duyuram.

Akademiyanın müxbir üzvü, Ali Sovetin keçmiş sədri, professor Yaqub Məmmədov: Səlahiyyətim olsa, R.Hüseynovu yenidən səhiyyə naziri edərdim.

Professor, Əməkdar elm xadimi İmamverdi Əbilov: Ömrünüz uzun, imkanlarınız bol, sözünüz kəsərli olsun.

Təvazökarlıqdan uzaq olsa da, deməliyəm ki, mənim Əlixeybər olmağımda da Rahim müəllimin əməyi çox olub və o, mənim ağsaqqalımdır.

Bütün titul və fəxri adlarla bərabər, qeyd etdiyim kimi, salyanlılar üçün o, Məmmədhüseyn dayının, Nənəqız müəlliмənin 5 övladından biridir. Hamı da onunla fəxr edir.

Rahim müəllim çox böyük şəxsiyyətdir. Rayonumuzun və bölgənin xeyir-şər məclislərində iştirak edərək ağsaqqallığını yerinə yetirir. Hər zaman şəhid və imkansız ailələrin, qazilərin yanında olmuşdur.

Hörmətli Rahim müəllim, Sizi anadan olmağınızın 75 illiyi münasibətilə öz adımdan və rayonumuzun səhiyyə ictimaiyyəti adından təbrik edir, cansağlığı, uzun ömür arzulayıram. Salyanlılar sizinlə fəxr edir.

*Əlixeybər Axundov,*
*Səhiyyə əlaçısı, Ali dərəcəli, "Tərəqqi" medallı həkim.*

**Rahim Hüseynovun 75 illik yubileyi ilə əlaqədar materialların davamı növbəti sayımızda da çap ediləcəkdir**

# Ekoloji həyatımız və reallıq

## Dünyada



# Qlobal ekoloji problemlər

Elmi-texniki tərəqqi bəşəriyyət qarşısında həlli çətin olan problemlər yaratmışdır. Onların içərisində əsas yeri insan və ətraf mühit arasında münasibətlər tutur. XX əsrdə əhalinin 4 dəfə, istehsalın həcminin isə 18 dəfə artması Yerin təbiətində ciddi problemlər yaratmışdır. Ətraf mühitə antropogen təsir dünyanın bütün ölkələrini əhatə etdiyi üçün bu, qlobal ekoloji problem adlandırılmağa başlanmışdır.

Qlobal ekoloji problemlərin, yəni ətraf mühitin çirklənməsinin səbəbi istehsal və istehlak zamanı yaranan tullantıların təbiətə qaytarılmasıdır. Hazırda bu tullantıların miqdarı ildə 300 mlrd. tonu keçmişdir.

Su hövzələri sənaye, kənd təsərrüfatı və məişət sularının daxil olması nəticəsində çirklənir. Hər il su hövzələrinə planetimizin su həcminin 20%-i qədər çirkli sular axıdılır. Bu sularda olan çirkləndiricilərin təsirini azaltmaq üçün onlara öz həcmindən 10 dəfə artıq təmiz su qarışdırılmalıdır. Bu mümkün olmadığı üçün Yerdə içməli su problemi getdikcə kəskinləşir. Nəticədə bəzi çay və göllərin çirklənməsi fəlakət həddinə çatmışdır. Sitarum (İndoneziya), Yamuna (Hindistan), Qanq, Yansızı, Nil çayları dünyanın ən çirkli çaylarına çevrilmişdir.

Dünya okeanı da sürətlə çirklənməkdədir. Aralıq, Şimal, Azov, Qara və s. dənizlər, Meksika, İran, Biskay körfəzləri Dünya okeanının ən çirkli su hövzələri sırasına daxildir. Okeanın mərkəzi hissələrində, dərin çökəkliklərində radioaktiv maddələrin (AES-lərin tullantıları, nüvə silahlarının sınaqları nəticəsində yaranan tullantılar) miqdarı getdikcə artır. Okeanın çirklənməsində neft və neft məhsullarının payı daha çoxdur. İldə 3 milyondan 10 milyon tona qədər neft okeana axıdılır. Tankerlərin qəzası zamanı okeana qısa vaxt ərzində min tonlarla neft axır.

Hazırda dünyanın bütün regionlarında ekoloji problemlər kəskin xarakter almışdır. Alimlər ekoloji vəziyyətin ən ağır olduğu 3 mərkəz müəyyən etmişlər:

1.Avropanın mərkəzi rayonları.

2.Asiyanın şərq, cənub və cənub-şərq hissələri.

3. Şimali Amerikanın mərkəzi.

Bu ərazilərdə təbii ekoloji sistemlərin yalnız 5-10%-i qalmışdır.

Təbii mühitin insan sağlamlığına təsirini və xəstəliklərin Yer kürəsində yayılmasını coğrafiyanın və səhiyyənin qolu olan tibbi coğrafiya elmi öyrənir. Tibbi coğrafiyanın əsas məqsədi təbii şəraitin yaxşılaşdırılmasına və bununla da insanların sağlamlıq səviyyəsinin yüksəlməsinə nail olmaqdır. Hazırda dünyada ekoloji problemlərin təsirindən ürək-damar, bədxassəli şişlər, QİÇS, quş qripi, donuz qripi və bir sıra xəstəliklər yayılmışdır.

Ekoloji problemlərin həllinin 3 əsas yolu müəyyən olunmuşdur.

"Birinci yol müxtəlif təmizləyici qurğuların istehsalı, alternativ enerji mənbələrinə keçid, zibilin emalı və ləğv edilməsi, torpaqların rekultivasiyası və s. tədbirlərdən ibarətdir.

"İkinci yol az tullantılı və tullantısız texnologiyalara keçidi nəzərdə tutur. Bu həll yolu böyük miqdarda vəsait tələb etsə də, ən səmərəli hesab olunur.

"Üçüncü yol çirkli təsərrüfat sahələrinin daha optimal yerləşdirilməsini nəzərdə tutur. Belə sahələrə kimya və neft-kimya, metallurgiya, sellüloz-kağız sənayesi, istilik energetikası, tikinti materialları istehsalı aiddir.

Dünya ölkələrində ekoloji problemləri həll etmək məqsədilə ekoloji siyasət həyata keçirilir. Təbiətin qorunması üçün müxtəlif beynəlxalq təşkilatlar yaradılmışdır; onlara YUNEP (BMT-nin tərkibində), "Qrinpis" (müstəqil təşkilat) və s. daxildir.

Ərazilərin ekoloji vəziyyətini müəyyənləşdirmək üçün ekoloji monitorinq və ekspertizalar aparılır. Dövlətlər təbiətin qorunması üçün uyğun normalar müəyyən edir, mühitin vəziyyətinin dəyişmə dərəcəsini yoxlayır. Bu yoxlamaların nəticələrinin mövcud normalara uyğunluğunun kompleks şəkildə öyrənilməsi ekoloji audit adlanır. Ekoloji sistemlərin müəyyən ərazi daxilində tarazlıq vəziyyətində olmasına ekoloji norma deyilir.

## Respublikamızda ---------------- Respublikamızda

# Xəzər dənizi niyə geri çəkilir

Xəzər dənizinin səviyyə tərəddüdləri davam edir. 2005-ci ildən Xəzərin səviyyəsində davamlı enmə müşahidə olunur. Məlumatlara görə, ən çox enmə (30 santimetr) 2021-ci ildə qeydə alınıb.



Xəzər qapalı su hövzəsi olduğundan dənizin səviyyəsinin daxil olan və gedən sularla əlaqədar dəyişməsi təbiidir. O üzdən iqlim dəyişmələri ilə əlaqədar Xəzəri qidalandıran əsas çaylarda suyun aşağı enməsi dənizin səviyyəsinə təsir edir. Eyni zamanda bura son illər yağıntıların az olması da daxildir. Çoxsaylı coğrafi, arxeoloji, tarixi və müşahidə məlumatları göstərir ki, son 4 min ildə Xəzər dənizinin səviyyə dəyişmələrində illik müddətlik var. Sonuncu belə düşmə 1862-ci ildən başlayıb və proses təxminən 2050-60-cı illərə qədər 1-2 metr düşmə ilə davam edəcək. Mütəxəssislər qeyd edirlər ki, 2050-ci ildən sonra Xəzərdə suyun səviyyəsinin artması proqnozlaşdırılır. Bu dövr də təxminən 200-250 il davam edəcək.

### *Xəzərin ətraf mühitinin bugünkü vəziyyəti narahatlıq doğurur*

Xəzəryanı ölkələr daim dəniz problemlərini diqqətdə saxlayır. Bu istiqamətdə mütəmadi olaraq konfranslar keçirilir, alimlər tərəfindən dənizin biomüxtəlifliyi öyrənilir, çirklilik səviyyəsi müəyyənləşdirilir. Sonuncu belə beynəlxalq tədbir iyulun 5-də "İqlim dəyişmələri şəraitində Xəzər dənizinin səviyyə tərəddüdləri, proqnoz və uyğunlaşma tədbirləri" mövzusunda Bakıda keçirilib.

Prezident İlham Əliyev də Aşqabadda keçirilmiş Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının Zirvə Toplantısında Xəzər dənizinin ətraf mühitinin bugünkü vəziyyətinin və dəniz səviyyəsinin aşağı düşmə dinamikasının narahatlıq doğurduğunu, bu problemlərin həlli ilə əlaqədar əməkdaşlığın genişləndirilməsində ölkəmizin maraqlı olduğunu vurğulayıb. Dövlət başçısı Xəzərin bioloji su ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi üzrə komissiya çərçivəsində Xəzəryanı ölkələrin uğurlu qarşılıqlı fəaliyyətinin davam etdiyini, bu ilin sonunda Bakıda "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının tərəflərinin VI konfransının keçirilməsinin nəzərdə tutulduğunu bildirib: "Bu gün məhdud tərkibdə görüşdə biz xüsusi narahatlıq doğuran məsələlər, konkret olaraq Xəzər dənizinin dayazlaşması barədə həmkarlarımızla fikir mübadiləsi apardıq. Biz bunu uzun illər boyu müşahidə edirik və təəssüf ki, dayazlaşma dinamikası narahatlıq doğurur. Buna görə biz fikir mübadiləsi apardıq və yəqin ki, nümayəndə heyətlərimiz belə ekoloji fəlakətin səbəblərinin aşkar edilməsi və Xəzərin bundan sonrakı dayazlaşmasının qarşısını almağa yönəlmiş tədbirlərin müəyyənləşdirilməsi üçün xüsusi ekspert qruplarının yaradılması işini davam etdirəcəklər".

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Mühafizəsi Xidmətinin rəisi Mehman Axundov deyir ki, proqnoza görə, 2022-ci ildə Volqa çayının sululuğunun proqnozlaşdırılandan aşağı olması ilə əlaqədar Xəzər dənizinin orta illik səviyyəsi əvvəlki 2021-ci ildəkindən 20-23 sm aşağı olacaq. Bu da öz növbəsində Xəzər dənizi regionunda sosial-iqtisadi fəlakətə, o cümlədən dənizin səviyyəsinin azalmasına səbəb ola bilər. Sözügedən fəsadlar sırasında biomüxtəliflik və balıqçılığın azalmasını da qeyd etmək olar.

Mehman Axundov qeyd edir ki, Xəzərdəki balıq populyasiyasının azalması birbaşa iqlim dəyişikliyi və temperaturla əlaqədardır. Anomal istilik Xəzər regionunda biomüxtəlifliyin azalmasına səbəb olur: "Bununla əlaqədar olaraq, balıqların təbii çoxalmasına şərait yaratmaq və biomüxtəlifliyə mənfi təzyiqi azaltmaq məqsədilə Xəzər dənizinə axan çaylarda suyun alınmasını optimallaşdırmağa və su-elektrik stansiyaları üçün bəndlərin tikintisini dayandırmağa çağırırıq. Əks halda, Xəzərdə Aral dənizinin yoxa çıxmasına bənzər ssenari baş verə bilər".

# Gələcəyin işığı - "yaşıl enerji"

**Prezident İlham Əliyev:**
***"Bu gün bizim enerji imkanımız bir çox ölkələr üçün də böyük önəm daşıyır"***

Yaxın keçmişdə elektrik enerjisi qıtlığı yaşayan Azərbaycanın bu gün bütün şəhər və kəndləri nura boyanıb. Biz hətta dörd qonşu ölkəyə elektrik enerjisi ixrac edir və onun Avropaya da ixracını planlaşdırırıq. Zəngəzur dəhlizi fəaliyyətə başlayandan sonra isə yalnız yüklər üçün deyil, eyni zamanda elektrik enerjisi üçün mühüm ixrac marşrutu ola bilər.

Hazırda xarici sərmayədarlar Azərbaycanın uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin edilməsi prosesinə həvəs və inamla qoşulublar. Bu ilin yanvar ayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" külək-elektrik stansiyasının tikintisinə start verilib. Daha sonra - martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə "Qaradağ" günəş-elektrik stansiyasının təməli qoyulub.

Beləliklə, xarici investorlar öz vəsaitləri hesabına ölkəmizdə 710 meqavat gücündə üç günəş və külək-elektrik stansiyasının tikintisi ilə məşğuldur. İkisi, qeyd olunduğu kimi, artıq inşa edilir, bp şirkəti ilə imzalanmış icra müqaviləsinə əsasən isə Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş-elektrik stansiyasının tikilməsi nəzərdə tutulur. Hazırda bu istiqamətdə müəyyən təhlillər aparılır.

Prezident İlham Əliyev bu barədə belə deyib: "Cəbrayıl rayonundakı stansiyanın inşası üçün hazırlıq işləri gedir. Yəqin ki, gələn il o inşaat da başlayacaq. Bu, ancaq başlanğıcdır. Bizim artıq xarici investorlarla əldə etdiyimiz razılaşmalara görə, əlavə iki min meqavat və ondan



da əlavə iki min meqavat günəş və külək-elektrik stansiyalarının inşası nəzərdə tutulur. Üstəgəl, Kəlbəcər və Laçın rayonlarında su-elektrik stansiyalarının istehsal gücü yenidən dəyərləndirilir. Çünki biz müharibədən sonra ancaq ermənilərin dağıtdıqları su-elektrik stansiyalarının istehsal gücünü hesablamışdıq. Orada 32 su-elektrik stansiyası var idi ki, ermənilər Kəlbəcər, Laçından gedəndə onları vəhşilər kimi dağıtdılar. Biz onları hesablayaraq müəyyən rəqəm səsləndirmişdik. Ancaq indi daha dərin təhlil aparılır. Çünki orada daha böyük həcmdə su-elektrik stansiyalarının inşası mümkündür. İndi təhlil hazırlanır, yəqin ki, biz orada perspektivdə ancaq kiçik su-elektrik stansiyalarından mindən çox meqavat götürə bilərik".

Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonası 10 min kvadratkilometr ərazini əhatə edir. Buraya daxil olan bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Üstəlik, bizim Xəzər dənizi kimi nəhəng bir enerji mənbəyimiz var. Bu həmçinin xarici mütəxəssislərin diqqət mərkəzindədir. Təsadüfi deyil ki, Avropa Komissiyasının Prezidenti xanım Ursula fon der Lyayen də keçən ay Bakıda olarkən bunu vurğulayıb. Başqa sözlə, ölkəmizin bərpaolunan enerji istehsalı sahəsində böyük potensialı Avropa İttifaqı tərəfindən yüksək dəyərləndirilir. Artıq külək və günəş enerjisinə sərmayə qoyuluşu prosesinə başlanıb. Bərpaolunan enerji potensialı ilə bağlı ilkin qiymətləndirmə də aparılıb. Bu məsələlər Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunda öz əksini tapıb.

## Rayonumuzda: Yeni layihə

# "Ana Kür" İctimai Birliyi Kür çayı ərazilərində ətraf mühitin qorunması istiqamətində maarifləndirici tədbirlərə dəstək verəcək

*Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi 2022-ci kiçik qrant müsabiqəsinin nəticələrini elan edib.*

*Qrant müsabiqəsinə 7 istiqamət üzrə 584 layihə təqdim olunub. Onlardan 400 QHT layihəsinin maliyyələşdirilməsi haqqında Agentliyin Müşahidə Şurası qərar qəbul edib.Qalib QHT-lər sırasında Salyan rayonunda fəaliyyət göstərən "Ana Kür" Ekoloji Problemlərin Öyrənilməsinə Kömək İçtimai Birliyinin də adı vardır. Sentyabr ayının birindən icraına başlanacaq və üç ay davam edəcək layihənin rəhbəri Rüstəm Məlikovdur. Layihənin məqsəd və vəzifələri barədə qarşıda duran problemlər və onların həlli üçün atılacaq addımlar haqqında layhə rəhbəri bunları bildirmişdir:*

Hazırda bəşəriyyət ətraf mühitin mühafizəsi istiqamətində ciddi problemlərlə üzləşmişdir. Həyatımızı təmin edən su, torpaq, hava və ətraf mühitin digər komponentləri çox ciddi təsirlərə məruz qalmaqdadır. Bu sadalananların hər biri özünə məxsus vacib amil olsalar da dünyada içməli suya olan tələbat daha sürətlə artmaqda, təmiz su mənbələri isə getdikcə azalmaqdadır.

Azərbaycanın əsas su ehtiyatı çay sularıdır. Ən böyük çayımız Kür hesab olunsa da indiki dövrdə çayın sululuq səviyyəsi və içmək üçün yararlılıq məziyyətləri nəinki, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına, heç texniki tələblərə belə cavab vermir.

Son illər Kür çayında suyun səviyyəsinin rekord minimumda aşağı düşməsi, təkcə kənd təsərrüfatı ilə məşğul olan fermerlər üçün deyil, əhali, bütövlükdə su istifadəçilərinin hamısı üçün ciddi problemlər doğurmuş və hazırda davam etməkdədir. Ətraf ərazilərdə yaşayan insanlar həm məişətdə, həm də suvarma işlərində bu sudan istifadə etdiklərinə görə mövcud yaşıllıqlar, meyvə ağacları quruyaraq məhv olur.

Təəssüf ki, mövcud vəziyyəti bərpa etmək səyləri istənilən nəticəni vermir. İnsan və ətraf mühut münasibətlərinə aid olan bu məsələ təkcə bizdə deyil, bütövlükdə, dünyada qlobal xarakter daşımaqdadır.

Layihənin icrası Kür çayı ərazilərində uzun illər nəticəsində təbii şəraitdə formalaşmış biomüxtəlifliyin kəskin sürətdə azalması, məhv olması prosesin qarşısını almaq və onun bərpası istiqamətində addımlar atmaq, bütövlükdə isə ətraf mühitin qorunması ideyasının gerçəkləşməsinə xidmət edir. Vaxtı ilə bol suyu ilə insanlara sevinc, torpağa can verən, adına şeirlər, şəninə mahnılar səslənən, obrazlı olaraq "Ana Kür", "Dəli Kür" adlanan, sahillərində keçilməz Tuğay meşələri olmuş çayımız indi sanki bioloji həyatının son dövrünü yaşayan təbiət abidələrindən biridir. Qarşıdakı illərdə çayın Xəzər dənizinə gedib çata bilməyəcəyi kimi bədbin proqnozlar artıq səslənməkdədir. Özünün nadir balığı ilə məşhur olan çayın sahillərində indi həvəskar balıqçı belə tapmaq mümkün deyildir. İnsanların içməli suya olan tələbatının pisləşməsi, hətta əkin sahələrinə və mal qaraya vermək üçün belə su çatışmamazlığı acıq aydın görünür. Hətta, Salyan və qonşu

Neftçala rayonunun bəzi kəndlərinə içmək üçün su dəfələrlə maşınlarının köməyi ilə məsafələrdən daşınmış və bu halların təkrarlanmayacağını heç kəs deyə bilməz. Kür çayının hər iki sahilində mövcud olmuş meşə örtüyü, müxtəlif kollar indi demək olar ki, gözə dəymir. Burada yalnız Qırmızı kitaba düşmüş Yulğun bitkiləri vardır ki, bunların da əraziləri mal-qara sahibləri tərəfindən örüş kimi istifadə olunur.

Layihənin məqsədi Salyan rayonunun ərazisində 65 kilometrini axıb keçməklə rayonu Muğan və Şirvan bölgələrinə ayıraraq dənizə qovuşan Kür çayının hər iki sahilində ətraf mühitin qorunması və biomüxtəlifliyin bərpa olunması istiqamətində layihənin ideyasını daha çox benifisar arasında təbliğ etmək, mövcud biomüxtəlifliyin qorunması və bərpası üçün gənclərin yerli təşəbbüslərinə dəstək vermək, könüllülük hərəkatını təşviq etməkdir.

Layihə komandası qarşıya qoyulan məqsədlərə çatmaq üçün bir sıra işlər nəzərdə tutmuşdur.

-Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin mütəxəssislərindən Kür çayının suyunun tərkibi barədə məlumatlar toplanacaq, müxtəlif xəstəliklərə yoluxma hallarının dinamikası təhlil ediləcəkdir.

- Layihə çərçivəsində Kür çayı sahilindəki məktəblərin yuxarı sinif şagirdləri və müxtəlif yaş qrupuna aid olan insanlar arasında maarifləndirici tədbirlər- dəyirmi masalar, açıq havada söhbət və diskussiyalar aparılacaqdır.

-Kür çayı sahillərinin plastik məmulatlar və məişət tullantılarından təmizlənməsi üçün könüllülərin iştirakı ilə iməciliklər keçiriləcəkdir.

-İcra planına uyğun olaraq Kür çayının və onun sahillərinin ekoloji vəziyyəti mövzusunda rayon mərkəzində konfrans keçiriləcəkdir. Tədbirə peşəkar ekoloqlar, tanınmış ictimaiyyət nümayəndələri dəvət olunacaqdır.

-Kür çayı sahilində İctimai birliyin əvvəllər icra etdiyi layihələr zamanı əkilmiş ağaclara ekoloji qulluq göstəriləcəkdir.

-İcra planına əsasən Salyan Dövlət Rəsm Qalereyasında, Uşaq-Gənclər İnkişaf Mərkəzində, orta məktəblərdə məşğul olan məktəbli rəssamların "Kür çayı və ətraf mühitin qorunması" mövzusunda çəkdikləri rəsm işlərindən ibarət sərgi təşkil ediləcək,fərqlənənlərə nəzrədə tutulan hədiyyələr veriləcəkdir..

-Şəhərin Kür çayına çıxışı olan ərazilərində zibil qutularının sayının artırılması üçün aidiyyatı orqanlara təkliflər veriləcəkdir.

-Yerli mətbuatda, ictimai birliyin "anakur.az" saytında, internet üzərindən yayımlanan "anakur tv"-də və sosial şəbəkələrdə maarifləndirici materiallar veriləcəkdir.

Layihənin hədəf qrupuna Kür çayının və onun sahillərinin çirklənməsində birbaşa iştirakçı olması ehtimal edilən müxtəlif yaş qrupuna mənsub olan insanlar və konkret tədbirlərdə iştirak edən məktəbli və digər yaş qrupuna daxil olanlardır.

Layihənin icra planına uyğun olaraq Kür çayı sahillərinə yaxın ərazidə yerləşən kənd tam orta məktəblərində keçiriləcək dəyirmi masa iştirakçıları, konfrans, sərgi və iməciliklər zamanı 175 nəfərdən çox insanın birbaşa, yayılacaq press-relizlər, mətbu və sosial mediada və digər yayım imkanları vasitəsi ilə əlavə olaraq daha 800 nəfərin irəli sürülən ideyalardan dolayısı ilə bəhrələnəcəyi gözlənilir.

Yeri gəlmişkən rayonumuzun bütün əhalisini hamımış üçün həyati əhəmiyyəti olan ətraf mühitin qorunması istiqamətində daha fəal olmağa, konkret isə Kür çayının sahillərinin ekoloji təmizliyinə riayyət etməyə çağırıram.






ANA KÜR
Avqust-Sentyabr 2022-ci il

SON SƏHİFƏ

*Vətən Müharibəsi Qəhrəmanlarımızı tanıyaq*

# "Çək Şəhriyar, çək, aldıq Cəbrayılı"

...Bu da Cəbrayıl. Cəbrayıl da bizdədi. Çək, Şəhriyar, çək. Aldıq Cəbrayılı...

O sevincindən gün elə bil dünyanı bağışlamışdılar Sübhana və Xüsusi Təyinatlı Qüvvələrin əfsanəvi taboruna. Sübhan əlində tutduğu avtomatı yuxarı qaldıraraq var gücü ilə ucadan, lap ucadan qışqırırdı: "Aldıq Cəbrayılı".

...26 sentyabr, 2020-ci il. Hava qaralmışdı. O günü Sübhangilə döyüş paltarlarını geyinmək əmri verildi. Hazırlıq işləri görə-görə Sübhanın xəyalları bir anlıq uzaq keçmişə qayıtdı. Doğulduğu Salyan rayonunun Marışlı kəndini, kənd məktəbində oxuduğu illəri xatırladı. Həqiqi xidmətdə olduğu illər yada düşdü. 2002-ci ildə Xüsusi Təyinatlı Qüvvələrin sıralarına öz istəyi ilə gəldiyi gün kino lenti kimi gözləri önündə canlandı.

Onda atası Rahim kişi hələ sağ idi. 51 yaşı vardı. Oğlunun boy-buxununa baxdıqca, ürəyi dağ boyda olurdu. Xüsusi Təyinatlı formasında evə gəlməsini çox arzulayırdı. Amma bu formada ictimaiyyət arasında gəzmək qadağan olunduğundan Sübhan hər dəfə evə mülki formada gəlirdi. Atasına: "narahat olma, mütləq formada gələcəm evə",-deyə ona söz verirdi. Bir il sonra Rahim kişi 52 yaşında bu dünya ilə əbədi vidalaşdı. Oğlunu hərbi formada görə bilmədi. Atasının ölümündən sonra günlərin birində evə qayıdan Sübhan hərbi formasını çantasına qoyub kənd qəbiristanlığına yollandı. Əynini dəyişib hərbi formada atasının məzarı başında fərəqət vəziyyətində dayandı. Başdaşından zillənən atasının baxışlarını üzərində görüncə, gözlərindən yanaqları boyunca axan iki damla yaş atasının uyuduğu torpağa hopdu...

Sonrakı illərdə məşqlər, xarici ölkələrdə keçdiyi ağır təlimlər... Döyüşçü yoldaşı Əvəz Banipaşa:

-2003-cü ildə oldu ilk tanışlığımız. Döyüş səviyyəsi çox yüksək idi. Türkiyədə kurslarda, təlimlərdə olub. Sonra Azərbaycan-Türkiyə-Gürcüstanla birgə "Enternet-2019" təlimimiz oldu. Ora da qatılıb. Yüksək nəticə əldə edib. XTQ-yə verilmiş tapşırıqlarda yüksək səviyyədə iştirak edib. Təltifləri olub.

Və Aprel döyüşləri.

Sübhan Cəbrayılov silahdaşları ilə 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Cəbrayıl istiqamətində düşmənlə döyüşmüşdü. Lələtəpə və bir sıra yüksəkliyin alınmasında əsl qəhrəmanlıq göstərmişdi. Pəncəli Teymurov, Samid İmanov kimi onlarla XTQ-dən olan silahdaşlarını o döyüşlərdə itirmişdi. Hətta o döyüşlrdən sonra anası hərbidən uzaqlaşmasını istəsə də, o; "şəhid olmuş dostlarımın, silahdaşlarımın intiqamını kim alacaq? Şəhid qardaşlarımızın qisasını almalıyam"-demişdi.

...Daxili Qoşunların Xüsusi Təyinatlısında xidmət edən və sonradan XTQ-yə ezam olunan Salyanın Şorsulu kənd torpağının yetirməsi, qazı Gözəl İmanov onu belə xatırlayır:

-Sübhanla 2020-ci il iyul aylarında İsmayıllıda tanış oldum. Qruplarımız, ayrl-ayrı olsa da, tez-tez əıaqə saxlayırdıq. Çox mərd, qorxmaz oğul idi. Elə döyüşə də eyni vaxtda yola düşdük.

Sentyabrın 26-sı axşam saat 11 olardı. Döyüş paltarlarımızı geyindik. Yadigar qalmaq üçün şəkil çəkdirdik. Tabor komandiri mayor Şıxamir Qaflanov dedi ki, istənilən vaxt döyüş əmri verilə bilər. Buna hər an hazır olun. Gecə saatlarında Füzulinin Alxanbəyli, Qaraxanbəyli kəndləri istiqamətinə yola düşdük. Səhər saat 6 radələrində ora çatdıq. Artıq əks-hücum barədə əmr verilmişdi. Vətən müharibəsi başlamışdı"…

Sözügedən yaşayış məntəqələrinin azad edilməsinə başlanılır. 5 gün şiddətli döyüşlər davam edir. Hətta Sübhangil həmin kəndləri azad edərkən düşmən pusqusuna da düşür. Köhnə səngərdə mövqe tutmuş Sübhan və silahdaşları pusqudan çıxmaq və düşməni məhv etmək üçün məqam gözləyirlər. Sonradan bu kadrlar sosial şəbəkələrdə də yayılır:

"Hal-hazırda Füzulinin Qaraxanbəyli kəndindəyik. (Kimsə qışqırır: "Eşq olsun Azərbaycanın Xüsusi Təyinatlılarına") Cəbidi, Samirdi...Kamera çəkən, firla. Fırla, çək özünü. Qənbərov Sənan. BQ-nin uşaqlarındandı. Əjdahadı".

Döyüşçü yoldaşı, Vətən Müharibəsi Qəhrəmanı



Mahir Məmmədov o günü belə xatırlayır:

-Qaraxanbəylidə erməni səngərinin ələ keçirilməsində Sübhan, Quliyev Şəhriyar və digər yoldaşlarının xidmətləri əvəzsizdir. O döyüşdə düşmənin xeyli sayda canlı qüvvəsi məhv edilir, səngər tutulur. Və Qaraxanbəyli, demək olar ki, işğaldan tam azad olunur. Orada Sübhanın çox qəhrəmanlıqları olub. Düşmənə olan kinini, nifrətini həm fiziki gücüynən, həm silahıynan göstərib. Hərbi hissədə "Cəbi" adı eşidiləndə bilinirdi ki, kimdən söhbət gedir. Yəni "Cəbi" deyiləcək ikinci bir adam yox idi. Cəbi qorxmazlıq, igidlik nümunəsi idi.

Sübhanın mənsub olduğu tabor 5 gün ərzində Füzuli istiqamətində 5 yaşayış məntəqəsini, bir çox adsız yüksəlikləri düşməndən təmizləyərək ona tam nəzarət edir. Həmin döyüşlərdə, sentyabrın 29-da XTQ-nin tabor komandiri, salyanlı Kamil Şirinov şəhadətə yüksəlir.

Komandanlığın əmri ilə Sübhan Cəbrayılov və onun silahdaşları Cəbrayıl istiqamətində savaşa atılır. Dörd gün şiddətli döyüşlər gedir. Sübhangil həmin günlərdə Cəbrayıl istiqamətində olan əlverişi mövqelər, starteji nöqtələr, eləcə də Cəbrayıl şəhəri daxil olmaqla 14 yaşayış məntəqəsini işğalçılardan azad edir. Düşmən xeyli itki verərək geriyə qaçır. Cəbrayılı işğalçılardan azad edəndə Sübhan və onun silahdaşlarının sevincinin həddi-hüdudu yox idi. Məhz Sübhan o zaman var gücü ilə qışqırıb: "Bu da Cəbrayıl. Cəbrayıl da bizdədi. Çək, Şəhriyar, çək. Aldıq Cəbrayılı", -deyə hər kəsə bəyan etmək istəyirdi.

Döyüşçü yoldaşı Əvəz Banipaşa:

-Füzulinin Qaraxanbəyli kəndi uğrunda gedən döyüşlərdə xidmətdə olan yoldaşımız yaralandı. Güllə girib, çanaq sümüyünü sındırmışdı.

Sübhan yaralıya ilk tibbi yardım göstərdi, qanaxmanın qarşısını aldıq. Yaralını çiyninə alıb dayanmadan 500 metr məsafədə apardı.

Döyüşlərin birində planlaşdırdıq ki, düşmənin arxasından qalxaq, o istiqamətdə basqın edək. Başladıq həmin yüksəkliyə qalxmağa. Birdən Cəbrayılov Sübhan qayıtdı ki, Paşa, mən yaralansam, məni daşıya biləcəksən? Dedim, birinci, Allah eləməsin, sən yaralanasan. İkincisi, yaralansan səni son enerjim bitənə qədər aparacam. Mən də ona sual verdim ki, sən necə, məni apara biləcəksən? Qayıtdı ki, səni lap Sumqayıta kimi çiynimdə aparacam. O söz mənə çox təsir elədi. Və əməliyyatımız da uğurlu keçdi.

Onun unudulmaz, hər dəfə çətinliyə düşəndə məşhur bir sözü vardı: "Vətən sağ olsun!"

18 il Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edən baş gizir Sübhan Cəbrayılov Allah adamı idi. Oruc tutub namaz qılardı. Ən böyük arzusu isə Şuşada ad gününü keçirmək, oradakı məsciddə namaz qılmaq idi.

Yenə yeni tapşırıq. Füzuli şəhəri alınmalı idi. Bunun üçün Xocavənd istiqamətində hücum təşkil edilməli, Hadrut qəsəbəsi düşməndən təmizlənməli idi. Belə də oldu. Baş gizir Sübhan Cəbrayılov, baş gizir Camal İsmayılov, gizir Şəhriyar Quliyev, gizir Elyar Vəliyevdən ibarət olan qrup Hadrut qəsəbəsininin işğalçılardan azad edilməsində əsl qəhrəmanlıq göstərdilər. Hətta düşmənin diversiya qrupunu pusquya salaraq məhv etdilər. Şiddətli döyüşlər zamanı Xocavəndin bir sıra kəndləri, Hadrut qəsəbəsi, Füzulinin bəzi yaşayış məntğəqələri azad edildi. Bundan sonra Füzuli şəhərinə girmək üçün Füzuli şəhərinin və Hadrut qəsəbəsinin arasında olan Ərgünəş dağı işğaldan azad olunmalı idi. Sübhanın olduğu əfsanəvi tabor bu işin də öhdəsindən layiqincə gəldi. Ərgünəş dağı ilə yanaşı, bir sıra yüksəkliklər, yaşayış məntəqələri tam azad edildi və Füzuli şəhəri nəzarətə götürüldü. Füzuli uğrunda 2 gün qanlı savaşlar aparıldı. Nəhayət oktyabrın 17-də Füzuli şəhəri düşməndən azad olundu.

Sübhangilin taboru qısa müddətdə Zəngilan şəhərini də düşməndən azad etdi. Hədəf Laçın dəhlizinə nəzarət etmək üçün Qubadlı istiqamətinə idi. Elə o günü, oktyabrın 18-də Sübhan ailəsi ilə əlaqə saxladı. Anası Ləzifə Cəbrayılova deyir:

-Axırıncı dəfə oktyabrın 18-də danışdı. Dedi ki, hər şey yaxşıdı. Qələbə bizimlədi. Sevinirdik. Aprel döyüşlərindən sonra elə bilirdim ki, bunlara heç nə olmayacaq. Axı onlara "canavar" deyirdilər. Biz isə uşaq vaxtı onu "Bosu" çağırmışdıq.

Oktyabrın 23-də Sübhan Cəbrayılovun 37 yaşı tamam olacaqdı. Anasını, ailəsini arxayın etdi ki, həmin gün mütləq əlaqə saxalayacaq. Şad xəbərlə onları sevindirəcək. Hələ o vaxta bir neçə gün qalmışdı.

19 oktyabr, 2020-ci il. Laçın dəhlizini nəzarətə götürmək üçün Qubadlı istiqamətindəki yüksəkliyi ələ keçirməli idilər. Əfsanəvi taborun döyüşçüləri ilə birlikdə 40 nəfərlə hücuma keçirlər. Strateji yüksəklik uğrunda 7 saat şiddətli döyüşlər davam edir. 200-330 nəfərlik düşmənə qarşı qeyri-bərabər savaşda Sübhangil son güllələrinə qədər döyüşürlər. Son anda düşmən snayperinə tuş gələn baş gizir Sübhan Cəbrayılov şəhadətə ucalır. Onunla bərabər, "Hadrut Fatehi" Camal İsmayılov, Şəhriyar Quliyev, Elyar Vəliyev və digər xüsusi təyinatlılar şəhidlik zirvəsini fəth edirlər.

Ləzifə ana:

-20-də xəbər verdilər ki, bunlar şəhid olublar. 3 gün neytral zonada qalıblar. Oktyabrın 23-də ad günündə zəng eliyəcəkdi, bayrağa bükülmüş tabutu gəldi. Ad günündə şəhid anası elədi məni. Oğlumun qəhrəman olduğunu şəhdliyindən sonra bildim. Mən danışanda tək Sübhandan yox, Şəhriyar, Elyar, Həmid, Kamil, Mehrab, Tarzan, Camal, Xəyyam kimi oğlanlardan danışıram. Bu canavarlar hamısı bir gündə şəhid oldular.

Oktyabrın 23-də ad günündə Sübhan Cəbrayılov yaşadığı Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dostu Şəhriyar Quliyevlə yan-yana dəfn edilir.

Əfsanəvi taborun əfsanəvi qəhrəmanı Sübhan Cəbrayılov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunur.

"Tək xəyallarımda yox, elə bir gün yoxdu ki, mən Şəhidlər xiyabanında onları ziyarət eləməyim. Çünki ailəmizdən, övladlarımızdan da daha çox onlarla bir yerdə olmuşuq. Bu qədər qardaşı itirmək asan bir şey deyil. İnşaallah üz-üzə görüşmək o dünyada nəsibimiz olacaq bizim. İntiqamlarının, qisaslarının alındığını, torpaqların azad olunmasını, əziyyətimizin boşa getmədiyini deyərdim onlara", - döyüşçü yoldaşı Mahir Məmmədov deyir.

Aprel döyüşlərindən sonra ölkə başçısı İlham Əliyev Xüsusi Təyinatlı Qüvvələrin zabitləri ilə görüşərkən Sübhan Cəbrayılovla da orada olub. İndi həmin portret Sübhanın doğulduğu Marışlı kəndindəki evin qarşısında vurulub. Salyanda peşə liseyinə adı verilib, şəhərin küçələrindən biri onun adını daşıyır.. Övladları Rahim və Fidan qəhrəman ataları ilə həmişə qürurlanırlar.

Cəbrayıl alınanda oğlunun hayqırtısı hələ də Ləzifə ananın qulaqlarından getmir.

*Təyyar Nəsirli*

# Nəsillərə nümunə ömür yolu

Vətən müharibəsi xalqımızın nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Canlarını vətənimizə, torpağımıza, tariximizə, mədəniyyətimizə tuşlanan düşmən gülləsinə sipər edənlər-şəhidlik zirvəsinə ucalanlar, bədənlərində qəlpə və onun yarasını gəzdirənlər, haqq savaşımızdan qalib çıxan, bu gün də torpaqlarımızın keşiyində ayıq-sayıq dayanan qəhrəman əsgər və zabitlərimiz qürur mənbəyimizə çevrildilər. Müstəqilliyimiz, ləyaqətimiz naminə döyüşlərə qatılmış qəhrəmanların hər biri xalqımızın sevimlisi, güvənc, and yeri oldu. Yurdumuzun belə igid, qəhrəman oğullarından biri,Vətən Müharibəsi Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin mayoru Zaur Rahat oğlu Hüseynov 1987-ci il avqustun 26-da Salyan şəhərində dünyaya gəlmişdir. 2002-ci ildə Sumqayıt şəhər 27 saylı tam orta məktəbdə təhsilini başa vurmuş, 2002-2005-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə təhsil almışdır. 2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Akademiyasına daxil olan Zaur 2009-cu ildə akademiyanı "fərqlənmə" diplomu ilə bitirmişdir. Akademiyada təhsil aldığı müddətdə keçirilən ordu yarışlarında 21 qızıl, 5 gümüş, 3 bürünc, ümumilikdə, 29 medalla təltif edilmişdir. 2009-2010-cu illərdə Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzini bitirən leytenant Zaur Hüseynov Milli Ordu sıralarında xidmətə göndərilmişdir.

Nümunəvi, qüsursuz xidmətinə görə, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalları, III dərəcəli "Qüsursuz xidmətə görə", II dərəcəli "Qüsursuz xidmətə görə", "Şücaətə görə" medalları ilə təltif edilmişdir. 2010-cu ildə Qazax rayonunda taqım komandiri kimi xidmətini davam etdirmişdir. Şəmkirdə keçirilən ordu yarışlarında Zaur 2 qızıl medala layiq görülmüşdür. 2011-ci ildə Xüsusi Təyinatlı Qüvvələrin kursunu uğurla başa vuran həmyerlimiz möhtəşəm Qələbənin qazanılmasında önəmli rolu olan XTQ-nin tərkibində xidmətə başlamışdır. Orduda bir çox vəzifələrdə çalışan Zaur Hüseynov 44 günlük II Qarabağ müharibəsində Tarixi Zəfərə aparan yolun başlanğıcı sayılan, hərb tariximizin şanlı səhifəsi olan 2016-cı ilin Aprel döyüşlərinin qəhrəmanları sırasında layiqli yer tutmuşdur. Xüsusilə Talış istiqamətində savaşda özünü bacarıqlı komandir, cəsur döyüşçü kimi göstərmişdir.

2017-ci ildə Türkiyə Respublikasında "Beynəlxalq dalğıc" (I sinif dalğıc) kursunu müvəffəqiyyətlə bitirmiş, 2016-ci ildə isə bu dalğıc təcrübəsini təkmilləşdirmək məqsədilə Türkiyədə "1-ci sinif dalğıc təlimçisi" kursunu müvəffəqiyyətlə başa vurmuşdur.

Mayor Zaur Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzulinin, Cəbrayılın, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə ağır, çətin məqamlarda tabor komandiri olaraq vaxtında, düzgün, qəti qərar vermək, tabeliyində olan döyüşçülərdə döyüş əzmi, ruh yüksəkliyi, qalibiyyət duyğuları aşılamaq qabiliyyəti yüksək səviyyədə olan həmyerlimiz hərbi əməliyyatların uğurla nəticələnməsinə nail olurdu. Şuşanın işğaldan azad olunması, bu cənnətməkan diyara üçrəngli bayrağımızın sancılması Vətən müharibəsində dönüş nöqtəsi oldu. Xalqımızın qeyrət rəmzi, dağ vüqarı olan Şuşanı döyüşçülərimiz sıldırımlı qayalara dırmanaraq, əllərində silah şir kimi düşmənin üzərinə şığıyaraq fəth etdilər. Azərbaycan dövlətçiliyi tarixində müstəsna yeri olan Şah İsmayıl Xətainin 1501-ci ilin payızında Təbrizə daxil olmasını ruhun bədənə qovuşması kimi qeyd edirlər. Şuşaya qovuşmağımızı da belə bənzətmə ilə ifadə etmək olar. Hər bir azərbaycanlının ürəyində xüsusi yeri olan Şuşanın azad olunması kimi şərəfli missiyanın müvəffəqiyyətlə yerinə yetirilməsində müstəsna xidmətləri ilə Azərbaycanın şanlı-şöhrətli hərb tarixində əbədi qalacaq Şuşaya daxil olan üç bölmədən birinin komandiri mayor Zaur Hüseynovun şəxsi qəhrəmanlığı, fədakarlığı, onun rəhbərlik etdiyi döyüşçülərdə qələbəyə olan inamın gücləndirilməsində misilsiz rolu danılmazdır. O, Şuşa qalasının divarlarını şəxsi heyəti üçün sipər kimi seçərək mənfur düşmənin öz məğlubiyyəti ilə barışana qədər doğma, Şuşamızı qoruyub saxlamışdır.

Möhtərəm Prezidentimiz İlham Əliyevin müvafiq sərəncamları ilə Zaur Rahat oğlu Hüseynov "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüş, "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Torpaq uğrunda, millətin namusu, heysiyyəti, haqq işi uğrunda döyüşlərə



atılan qəhrəmanların, o cümlədən mayor Zaur Hüseynovun həyatı gələcək nəsillər üçün örnəkdir, nümunədir. Qeyd edək ki, qəhrəmanımızın atası Rahat kişi I Qarabağ Müharibəsi Veteranı, ehtiyatda olan kapitandır.

Zaur Hüseynovun bacısı - rayon Heydər Əliyev Mərkəzinin əməkdaşı Könül xanımla söhbətimizdə o, bildirdi ki, xalqımızın otuz illik torpaq həsrətinə, yurd nisgilinə son qoyan tarixi Zəfərin əldə olunmasında mənim də qardaşımın payı olduğuna görə, qürur duyur, iftixar hissi keçirirəm. Bilirsiniz ki, bacılar qardaşlarını həddindən artıq çox istəyir, onları özlərinə arxa-dayaq bilirlər. Bir də ona görə fərəhliyəm ki, qardaşım təkcə öz bacısına, anasına, atasına yox, bütün Azərbaycan bacılarına, analarına, atalarına arxa-dayaq, güvənc yeri, and yeri oldu. Xalqımızın alnıaçıq, başıuca gəzməsində, özünü qalib millətin nümayəndəsi hesab etməsində mənim də qardaşımın əməyi, zəhməti olduğuna görə, özümü dünyanın ən xoşbəxt bacısı hesab edirəm.

*Əzizağa Məmmədli*

*Vida sözü*

# Fazil Sabir oğlu Məhərrəmov

Avqust ayının ikisində xəbər portallarında və sosial şəbəkələrdə Sabirabad rayonu ərazisində ölümlə nəticələnən zəncirvari yol qəzası barədə xəbər şox sürətlə Salyan rayonuna da yayıldı. Xəbərdə deyilirdi ki, hadisə Sabirabadın Qaragünə kəndundə Şirvan-Salyan magistralında qeydə alınmışdır. Minik və yük maşınının qarşıdan gələn avtobobillə toqquşması nəticəsində bir nəfərin hadisə yerində öldüyü, 6 nəfərin isə xəsarət aldığı bildirilirdi. Ölən şəxsin Salyan şəhər sakini Fazil Sabir oğlu Məhərrəmov olduğu qeyd edilirdi.

Bəli, bu acı xəbərin təsirindən hələ çoxlarımız çıxa bilməsək də, qəfil ölüm 32 yaşlı Fazili artıq bizdən ayırmışdı.

Fazili Salyanda demək olar ki, gənclər də, orta nəsil də yaxşı tanıyırdı. Yaşlı nəsil isə onu vaxtında Salyanın müqtədir ziyalılarından, qabaqçıl pedaqoqlarından olmuş babası Fazil müəllimin nəvəsi, Salyan Rayon İcra Hakimiyyətində sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Məhərrəmovun oğlu kimi tanıyirdılar. Hamıda da bir fikir var idi. Ağıllı, işgüzar, təşkilatçı bir gəncdir. Onu məhz bu keyfiyyətlərinə, dövlətinə və Yeni Azərbaycan Partiyasının ideyalarına bağlılığına görə, partiyanın rayon təşkilatında işə dəvət etmişdilər. Məlum hadisə günü isə YAP Salyan rayon təş-



kilatı sədrinin müavini vəzifəsinə təyinat almışdı...

Tale belə imiş. Sonuncu dəfə iş otağından çıxarkən bəlkə də dönüb bir də baxıb, baxıb ki, hələ qarşıda onu daha məsul vəzifələr, işlər gözləyir. Ata, ana isə toy sevincinə, nəvə, nəticə arzularına yetişəcəkləri günün həsrəti ilə yaşayırdılar. Bütün müsbət keyfiyyətlərinə rəğmən, biz onun vətənpərvərlik duyğularını xalqımıza Zəfər tarixini yaşatmış şəhidlərimizin dəfnində göstərdiyi köməklik zamanı çox yaxından tanıya bildik.

Fazil Məhərrəmovun dəfni ümumrayon səviyyəsində oldu. Qəlbinin hökmü ilə yüzlərlə insan gecə saatlarında onu son mənzilə yola saldılar. Başda RİH başçısı Sevindik Hətəmov olmaqla rayon icra hakimiyyətinin aparatının işçiləri, ictimaiyyəti təmsil edən ziyalılar, onun dostları, tələbə yoldaşları, doğmaları, şəhər sakinləri qəlblərinə süzülən göz yaşları ilə onunla vidalaşdılar.

Mərhumun dörd mərasimində rayon rəhbərliyi başda olmaqla, ictimaiyyət təmsilçiləri yenə də onun məzarını ziyarət etdilər. Salyan Rayon İcra Hakimiyyəti və rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, təhsil, mədəniyyət işçiləri, ictimaiyyətin nümayəndələri, partiya fəalları, doğmaları tərəfindən məzarı üzərinə əklil və tər gül-çiçək dəstələri qoyuldu, ruhuna dualar oxundu.

Allah səni rəhmət eləsin, Fazil Sabir oğlu. Yerin cənnət olsun.

İnsanların qəlbində bu əvəzsiz itkinin, vaxtsız ölumun doğurduğu hisslər hələ uzun müddət səngiməyəcəkdir. Xüsusən, sosial şəbəkə istifadəçiləri, ayrı-ayrı adamlar bu faciənin təsirindən yazırlar.

Redaksiyamıza dil-ədəbiyyat müəllimi, yaxşı tanıdığımız şair-publisist Zöhrab Pirioğlu gələrək Fazilin vaxtsız ölümü ilə bağlı yazdığı şeiri təqdim etdi. Öxuduq kövrəldik. Siz də oxuyun.

## Soyuq məzarının daşına qurban

*Fazil Sabir oğlu Məhərrəmovun əziz xatirəsinə*



Ölüm karvan kimi baş alıb gedir,
Ömür kərpicindən daş alıb gedir,
Ağlayan gözlərdən yaş alıb gedir,
Fazil, o tez solan yaşına qurban,
Soyuq məzarının daşına qurban.

Həyat pəncərədir, baxıb gedirsən,
Ölüm libasını taxıb gedirsən,
Qaranlıq məzara axıb gedirsən,
Fazil, o tez solan yaşına qurban,
Soyuq məzarının daşına qurban.

Kəfənin üstündə qara göndərib,
Sənin məzarında dara göndərib,
Allahım gör səni hara göndərib,
Fazil, o tez solan yaşına qurban,
Soyuq məzarının daşına qurban.

Ömür çata bilmir çox vaxt yüzlərə,
Ömürdən nə qalır, görən, bizlərə?
Kəfən öpmək olur solan üzlərə,
Fazil, o tez solan yaşına qurban,
Soyuq məzarının daşına qurban.

Məzardan dön bəri, üzünə bir bax,
Alışan qəlbinin közünə bir bax,
Ananın ağlayan gözünə bir bax,
Fazil, o tez solan yaşına qurban,
Soyuq məzarının daşına qurban.

Zöhrab yaxşı bilir köçəri quşdur,
Ömür əvvəl-axır ölümə tuşdur,
Soyuq məzarının yazı da qışdır,
Fazil, o tez solan yaşına qurban,
Soyuq məzarının daşına qurban.

*Zöhrab Pirioğlu Qəmli*

4 avqust 2022 -ci il

ANA KÜR

İctimai, ekoloji maarifləndirici qəzet

Təsisçi və baş redaktor:
Rüstəm Məlikov

İcraçı direktor-Leyla Nəsirova,
AJB-nin üzvü.

Redaksiya kollektivi
ictimai əsaslarla çalışır

Qəzet Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyində qeydə alnmışdır:
№ 10/ M-4153.

KapitalBank Salyan r-n filialı,
kod: 200435
VÖEN № 9900003611
M/H № 0137010001944
SWİFT AIIBAZ 2x
VÖEN №7000403892
H/h № AZ20AİİB
38210019444300309143

Qəzet "Ana Kür"-də yığılıb
və "B-Z" nəşriyyatında
çap edilmişdir.

Ünvan: AZ 5200 Salyan ş.
Y.Xankişiyev küçəsi-22.
Telefon: 050-381-15-42.
E-mail: ana-kur2011@mail.ru

Tiraj: 500 ədəd.
Qəzet pulsuz paylanır.

Müəlliflərlə redaksiyanın
mövqeyi uyğun gəlməyə bilər.